## *TƏHSİLİN İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ*

UOT 371.

***Xalidə Səlim qızı Hüseynova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun böyük elmi işçi*

# İDARƏETMƏNİN HƏYATA KEÇİRİLMƏ MƏRHƏLƏLƏRİ VƏ TƏHSİLİN İDARƏOLUNMASINDA DEMİNQ-ŞUKART MODELİNDƏN İSTİFADƏ

***Xalida Салим кызы Гусейнова***
*старший научный сотрудник*
*Института Образования Азербайджанской Республики*

# ИСПОЛЬЗОВАНИИ МОДЕЛИ ДЕМИНГ-ШУХАРТ ПРИ УПРАВЛЕНИИ ОБРАЗОВАНИЕМ И ВНЕДРЕНИИ ЕГО ЭТАПОВ В ЖИЗНЬ

***Khalida Salim Huseynova***
*senior scientific worker*
*of the İnstitute of Education of the Rupublic of Azerbaijan*

# MANAGEMENT EXECUTION PHASES AND THE USAGE OF DEMING – SHUKART MODEL IN EDUCATIONAL MANAGEMENT

**Xülasə:** Təhsil müəsissələrində təhsilin keyfiyyətinin yüksəldilməsi – tədris ili ərzində və təhsil səviyyələrinin sonunda fənn kurikulumları üzrə monitorinqlərin aparılmasını, təhsilalanların bacarıq və nailiyyət səviyyəsinin fərdi qiymətləndirilməsini və bunun əsasında təhsilverənlərin, məktəb psixoloqu və və digər işçilərin fəaliyyətinin qiymətləndirilməsini və dəyərləndirilməsini zəruri edir. Məqalədə təlim-tədris prosesində keyfiyyətin yüksəldilməsini təmin edən Deminq-Şukart modelindən istifadə olunmanın əhəmiyyətindən danışılır.
***Açar sözlər**: təhsilin idarəedilməsi, təhsilin məzmunu, planlaşdırılan fəaliyyət, monitorinqlərin nəticələri*

**Резюме:** Повышение качества образования в учебных организациях – это проведение мониторинга по предметным курикулумам в конце каждого уровня обучения и за учебный год, оценивание умений и достижений обучающихся индивидуально, и на основе этого оценивание деятельности педагогов и других лиц занимающихся процессом обучения. Статья раскрывает важные моменты использования модели Деминг-Шухарт для повышения качества уровня обучения и образования.
***Ключевые слова**: управление процессом образования, содержание образования, запланированная деятельность, результаты мониторинга*

**Summary:** Improving the quality of education in educational establishments requires : conducting monitorings on the curriculum during an academic year and at the end of the educational levels, assessment and evalution of teachers and other workers based on individual assessment of the scholars' skills and achievements. The article discusses the importance of using Deming – Shukart's model which guarantees improvement of the quality during the training and education process.
***Key* words*:* *education management, content of education, planned activity, monitoring results*

İdarəetmə hansı mərhələlərlə həyata keçirilməlidir ki. nəticələri daha effektli olsun? Biz idarəetmənin həyata keçirilmə mərhələləri ilə bağlı məsələləri təhsilin idarəedilməsi fonunda nəzərdən keçirəcəyik.

Aydındır ki, təhsil dövlət idarəetməsinin strateji istiqamətlərindən biri olub daha çox diqqət çəkən və qayğı tələb edən sahələrdəndir. Çünki, təhsil sahəsi inkişaf etmədən, təhsilli insanlar yetişdirmədən dövləti idarə etmək, onun gələcəyini - əbədiliyini təmin etmək mümkün

deyil. Bu ideyaları hələ sovetlər dönəmində siyasi hakimiyyətdə olan, vətəninin, xalqının gələcəyini onun elmi potensialının yetişməsində görən Ulu Öndər Heydər Əliyevin keçən əsrin yetmiş-səksəninci illərində çox uzaqgörənliklə həyata keçirməsi müstəqillik illərində öz bəhrəsini verməyə başladı.

Bu siyasi kurs Ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, Prezidentin səyi nəticəsində son illər Azərbaycan iqtisadiyyatının dinamik inkişafına nail olunmuş, neft gəlirlərinin müəyyən hissəsinin qeyri-neft sektorunun inkişaf etdirilməsinə, həmçinin ölkə gənclərinin dünyanın inkişaf etmiş ölkələrində təhsil almalarına yönəldilməsi nəzərdə tutulmuşdur. Daha dəqiq desək, İlham Əliyevin çox uzaqgörənliklə söylədiyi proqram xarakterli fikirlərin – " Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik" fikrinin həyata keçirilməsinə yönəlmişdir. Bu proqram müvəffəqiyyətlə həyata keçirilir və artıq dünyanın bir sıra inkişaf etmiş ölkələrinin qabaqcıl ali məktəblərində müxtəlif səviyyələrdə təhsil almış mütəxəssislərin ölkəyə qayıtması və müxtəlif sahələrdə çalışmaları öz müsbət bəhrələrini verməkdədir.

Bu nəticələrin əldə edilməsində ölkə səviyyəsində ciddi idarəetmə strukturunun yaradılması və təcrübələr əsasında inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır. Belə ki, işlərin görülməsi adətən planlaşdırmadan başlamışdır. Çünki, düzgün planlaşdırma olmadan, görülən işin nəticələri əvvəlcədən nəzərə alınmadan həyata keçirilən işlərin səmərəlilik səviyyəsinin bütün hallarda qənaətbəxş olmayacağı aydındır. Ona görə də ölkənin idarəetmə strukturlarında çalışanların – idarəedənlərin cavabdeh olduqları sahələrin inkişafı ilə bağlı məsələlərin səriştəli mütəxəssislər tərəfindən qlobal səviyyədə nəzərə alınmaqla hazırlanması mühüm əhəmiyyət kəsb edir və hazırda belə nəzərdə tutularaq hazırlanır və həyata keçirilir. Planlaşdırmanın nəticələrinə uyğun olaraq fəaliyyət istiqamətlərinin düzgün qurulması – seçimi və müəyyən ardıcıllıqla həyata keçirilməsi zəruridir. Həyata keçirilən fəaliyyətlərin – görülən işlərin iş başa çatdıqdan sonra deyil, onun müəyyən mərhələlərində yoxlanılması çox vacibdir və bu işin gedişində baş verən və ya baş verə biləcək nöqsanların qarşısının alınmasında və ya korrektə edilməsində mühüm rol oynayır. **İdarəetmənin Deminq-Şukart modeli.** U. Şukart "Sənaye məhsullarının keyfiyyətinin iqtisadi idarəedilməsi" adlı birinci kitabını 1931-ci ildə, "Keyfiyyətə nəzarət nöteqteyi-nəzərindən statistik metod" adlı ikinci kitabını isə 1939-cu ildə çap etdirdi. O, kitablarında məhsulların hazırlanma prosesində keyfiyyətinə nəzarətin statistik metodlarını öz baxımından təhlil edirdi.

Deminq keyfiyyətin idarə edilməsində üç əsas mərhələni ayırırdı:

- ✓ Təsnifatının hazırlanması (texniki tapşırıq, şərtlər, xətalar);
- ✓ məhsulun istehsalının spesifikasiyaya uyğunluğu;
- ✓ istehsal olunmuş məhsulun spesifikasiyaya uyğunluğunun yoxlanılması.

Şukart bu üç mərhələnin dörd addımdan ibarət tsiklik prosesdən ibarət olduğunu qeyd edirdi:

- ✓ məhsulun işlənib hazırlanması;
- ✓ məhsulu hazırlamaq və istehsal xəttində və ya laboratoriyada yoxlamaq;
- ✓ məhsulu bazara çıxarmaq;
- ✓ məhsula tələbatı öyrənmək.

Şukart məhsulun keyfiyyətini daim yaxşılaşdırmağı nəzərdə tuturdu və bunu istehsalın əsas göstəricisi hesab edirdi. Bu məqsədlə də o, keyfiyyət üzərində nəzarətin həyata keçirilməsinin təmin olunmasını təklif edirdi. Şukartın keyfiyyətin idarəedilməsi ilə bağlı yaratdığı tsikl E. Deminqin konsepsiyasında inkişaf etdirildi.

Deminq-Şukart tsikli adını alan bu konsepsiya PDCA ( Plan – planlaşdırma, Do – realizasiya, Check – yoxlama, Action – fəaliyyət) adlandırıldı.

Aşağıda Deminq-Şukart modelinin (tsiklinin) sxemi verilir:




Deminq istehsal prosesində məhsulun keyfiyyətinə nailolmanın aşağıdakı praqmatik aksiomlarını müəyyən etdi:

1. İstənilən fəaliyyətə texnoloji proses kimi baxmaq olar və bu baxımdan onun yaxşılaşdırılması labüddür.

2. İstehsalata stabil və ya qeyri-stabil vəziyyətdə olan sistem kimi baxmaq lazımdır.

3. Müəssisənin birinci rəhbəri bütün hallarda özünün məsuliyyətini hiss etməlidir.

Deminq bu aksiomlar əsasında aşağıdakı prinsiplərin qəbul olunmasını zəruri hesab edir:

1. Məqsədin daimi olması. Müəssisə müntəzəm olaraq məqsədyönlü şəkildə keyfiyyətin yüksəldilməsinə çalışır.

2. Rəhbərlik fəaliyyət prosesində uyğunsuzluqları, gecikmələri, səhvləri və s. aradan qaldırır.

3. Kütləvi yoxlamaları aradan qaldırır.

4. Qiymət məhsulun keyfiyyətinə uyğun qoyulur.

5. Məhsulun keyfiyyətini yüksəltməyə xidmət edən hər bir proses yaxşılaşdırılır.

6. Bütün işçilərin təlim alması – ixtisasartırması təmin olunur. Praktik olaraq kadrların hazırlanması və yenidənhazırlanması həyata keçirilir.

7. Rəhbərliyin yeni üsullarından istifadə edilir. Rəhbərlik işçilərə öz işlərini yaxşılaşdırmaq üçün müvafiq köməklik edir.

8. İşçilərin sərbəst, effektiv işləməsi üçün şərait təmin edilir.

9. Münasibətlərdə maneələr aradan qaldırılır.

10. Lazımsız şüarlardan, çağırışlardan imtina olunur.

11. İşçi kəmiyyət baxımından normaya əsaslanan sayda deyil, imkanları daxilində keyfiyyət baxımından məhsul hazırlayır.

12. İşçilər öz işlərindən qürur duyurlar.

13. İşçilər təhsil səviyyələrinin yüksəldilməsinə və təkmilləşdirilməsinə həvəsləndirilir.

14. Rəhbər məhsulun keyfiyyətinə cavabdehdir.

Göstərilən prinsiplərə əməl edildiyi halda, müəssisə yerinə yetirdiyi fəaliyyət növündən asılı olmayaraq müvəffəqiyyət əldə edir. Başqa sözlə, müəssisədə idarəetmə aşağıda göstərilənlər əsasında qurulduqda həyata keçirilən proses öz effektiv nəticələrini verir:

1. Məqsəd və vəzifələrin müəyyən edilməsi P

2. Məqsədə uyğun nailiyyət üsullarının təyin edilməsi

3. Kadrların təlimi və hazırlanması D

4. İşin yerinə yetirilməsi

5. Yerinə yetirilmiş işin nəticələrinin yoxlanması C

6. Uyğun idarəetmə təsirlərinin həyata keçirilməsi A

Bu göstərilənlər nəzərə alınmaqla, təhsil prosesinin idarəedilməsi qurulduqda müsbət nəticələr almaq mümkündür. Belə ki, müvəffəqiyyətin əldə edilməsi əldə edilməli olanın - məqsədin müəyyən edilməsindən, başqa sözlə görüləcək işlərin planlaşdırılmasından başlanır. Planlaşdırma bütün şərtlər nəzərə alınmaqla həyata keçirildikdə nəticənin alınması artıq "görünür" . Bu görüntünün reallaşdırılması üçün işçi qruplarının bacarıq səviyyəsinə uyğun tapşırıqları müəyyən olunur: haradan başlayıb hara gedəcəkləri və necə gedəcəkləri addım-addım verilir. İşçi qruplarının fəaliyyəti – iş prosesi daim nəzarətdə saxlanılır və yeri gəldikcə (vəziyyət öyrənilərək) işin yaxşılaşdırılması üçün müəyyən təkliflər verilir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, bu metodun - tsiklin təhsil sahəsinə tətbiqini vacib hesab edirik və onun təhsilin keyfiyyətinin yüksəldilməsində böyük səmərə əldə olunmasına imkan verəcəyini qətiyyətlə təqdir edirik.

Aşağıda Deminq-Şukart tsiklinin təhsil sistemində tətbiqinin təhsilin keyfiyyətinin yüksəldilməsində təsiri nəzərdən keçirilir.

Aydındır ki, təhsil müəssisələrinin əsas vəzifələrindən birincisi təhsilalanın yüksək keyfiyyətli təlim almasını təmin etməkdən ibarətdir. Bu isə təhsilverənlərin təhsilvermə, təhsili idarəetmə orqanlarının idarəetmə fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi və təhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması üçün müvafiq planlaşdırmanın aparılmasını zəruri edir.

Deminq-Şukart modelinə uyğun olaraq ilk iş təhsillə bağlı həyata keçirilməsi nəzərdə tutulan işlərin yerinə yetirilmə ardıcıllığının müəyyən olunması – işin planlaşdırılması lazım gəlir.

Təhsil müəssisələrində Planlaşdırmanın tərkib hissələrinə aid hədəflər əsasən aşağıda verilənlərdən ibarətdir:

*(1) təhsil prosesinin təşkili,*

*(2) fənn üzrə təhsil proqramlarının yerinə yetirilməsi,*

*(3) pedaqoji kadrların peşə səriştəliliyi və təhsilin gözlənilən nəticələrinin əldə olunmasında onların fəaliyyətinin təmin edilməsi,*

*(4) təhsilalanların fənlər üzrə fərdi təhsil nailiyyətləri, inkişaf dinamikası və yekun attestasiyasının nəticələri,*

*(5) təhsilverənlərin yeni təhsil texnologiyalarına yiyələnmə və ondan istifadəetmə vəziyyəti,*

*(6) təhsil müəssisəsinin maddi-texniki bazası,*

*(7) tədris prosesinin zəruri maddi-texniki resurslarla təmin edilməsi,*

*(8) təhsil müəssisələrində tərbiyə işinin təşkili,*

*(9) əlavə təhsil xidmətlərinin vəziyyəti,*

*(10) təhsilalanların və təhsilverənlərin qida məhsulları ilə təminatı və sağlamlıq vəziyyəti,*

*(11) təhsil müəssisəsinin maliyyə təminatı.*

Bundan sonra planlaşdırılan fəaliyyətlərin yerinə yetirilməsinə başlanılır ki, bu da təhsil müəssisəsində təhsilvermə prosesinin təşkilini və həyata keçirilməsini nəzərdə tutur. Təhsilin müəyyən olunan məzmunu təhsilverənlər tərəfindən həyata keçirilir. Bu həyata keçirilmənin səviyyəsinin müəyyən edilməsi isə mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə təhsilalanların fəaliyyətinin yoxlanılması lazım gəlir. Ona görə də tam aşkarlıq şəraitində şəffaf və obyektiv monitorinqlər aparılır. Bir çox hallarda monitorinqlər müstəqil təşkilatlar tərəfindən həyata keçirilir.

Prosesin gedişində fəaliyyət istiqamətləri üzrə davamlı monitorinqlərin keçirilməsi nəticəsində tədrisin vəziyyəti barədə ilkin məlumatlar əldə edilir, bu məlumatlar təhlil olunur – qiymətləndirilir, nöqsanlar, çatışmazlıqlar müəyyən edilir və təkliflər hazırlanır. Bu deyilənlər aşağıdakı sxem əsasında reallaşdırılır:




Beləliklə, nəticələrinin təhlil olunması məktəb rəhbərliyi (direktoru, tədris işlərinə rəhbərlik edən direktor müavini, elmi-metodiki şuranın rəhbərliyi, fənlər üzrə metodbirləşmələrin sədrləri) müəyyən təkliflər hazırlayır və onların əsasında təhsil prosesi həyata keçirilir və bundan sonra yenidən monitorinqlər aparılır. Müvafiq komissiya tərəfindən ikinci dəfə aparılmış monitorinqin nəticələri araşdırılır:

1. Mövcud (real) vəziyyət necədir?
2. Biz hardayıq ?
3. Problemlər nədir və nədən yaranıb?
4. Biz nə etməliyik? Nə üçün etməliyik? Necə etməliyik?

Bu suallara cavablar axtarılır. I və II monitorinqlərin nəticələri müqayisə olunur.

Göründüyü kimi, birinci və ikinci monitorinqlərin nəticələri müqayisəli təhlil olunarkən təhsilalanın nəticələrindən asılı olaraq, həm təhsilverənlərin tədris prosesini aparma səviyyəsi, həm tədris prosesinə nəzarəti həyata keçirənlərin rəhbərlik etdikləri sahəyə münasibətləri, həm də təhsili idarəetmə orqanlarının birbaşa cavabdeh olduqları sahə ilə maraqlanma səviyyələri – məsuliyyətləri müəyyən olunur.



Şukart tsiklindən istifadə olunmasını məqsədəuyğun hesab edirik və bu zaman birinci və ikinci tsikllərin müqayisəli təhlil edilməsini – dəyərləndirmələrin aparılmasını daha əhəmiyyətli faktorlardan biri sayırıq.

**Problemin aktuallığı:** hər bir təhsil müəssisəsində təhsilin keyfiyyətinin yüksəldilməsi üçün çevik tədbirlər planının hazırlanması, monitorinqlərin və müvafiq dəyərləndirilmələrin aparılmasının vacibliyi açıqlanır.

**Problemin elmi yeniliyi:** təlim prosesində şagirdlərin fəaliyyətinin düzgün qiymətləndirilməsi ona keyfiyyətli təhsil alması üçün fəaliyyətini stimullaşdırmağa əhəmiyyətli dərəcədə kömək edir.

**Problemin praktik əhəmiyyəti:** məqalədə göstərilən Deminq-Şukart modelindən istifadə məktəbdə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

## Ədəbiyyat:


1. Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı, 2007.
2. Шухарт У. “ Статистические методы с точки зрения управления качеством”. – N.Y.: Dover Publ., Inc., 1939 ( reprint 1986) .
3. Деминг У.Э. Лекция перед яронскими менеджерами в 1950 г. // Методы менеджмента качества. – 2000. -С. 24-29 ( Пер. Ю.П.Адлера и В.Л.Шпера).
4. Лидерство через качество. Процесс решения проблем. Руководство для пользователя. – М.: Ксерокс, 1997.


E-mail: huseynova.xalida@inbox.ru

**Rəyçi:** *ped. ü. elm. dok.* İ.A. Cavadov

**Redaksiyaya daxil olub: 11.05.2018**